Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası

**Azərbaycan Prezidentinin alimlərə ünvanlanan çağırışının KİV-də ictimai müzakirəsi**

# Qarabağ həqiqətləri: çağırış və alimlərdən gözləntilər

**2015-ci il noyabrın 9-u Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) 70 illik yubileyinə həsr olunmuş ümumi yığıncaqda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev proqram xarakterli konseptual çıxış edib. Müasir dünyada baş verən siyasi, iqtisadi, hərbi, mənəvi proseslərin mahiyyətini incəliyi ilə alimlərin diqqətinə çatdıran cənab Prezident Azərbaycanın elm adamlarını ölkənin inkişafında yaxından iştirak etməyə çağırıb, onların qarşısına konkret vəzifələr qoyub.**



*Jurnalist Ekspert Mərkəzi ölkə başçısının alimlər qarşısında qaldırdığı məsələləri istiqamətlər üzrə təsnifatlandıraraq, layihə hazırlayıb. Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə həyata keçirilən layihə "Azərbaycan Prezidentinin alimlərə ünvanlanan çağırışının KİV-də ictimai müzakirəsi" adlanır. Layihə çərçivəsində alimlərin iştirakı ilə Dəyirmi masalar keçirilir, mövzular üzrə səsləndirilən təkliflər "Kaspi" qəzetində dərc olunur. Sonda ən səmərəli təkliflər paket şəklinə salınaraq, müvafiq dövlət qurumlarına ünvanlanacaq.*

**Yeddinci mövzu:**

**- Azərbaycanın zəngin tarixinin dünya miqyasına daha dolğun çıxarılması, ermənilərin torpaqlarımıza köçürüldüyünün, Dağlıq Qarabağla yanaşı İrəvanın da tarixi Azərbaycan torpaqları olduğunun danılmaz faktlar əsasında sanballı elmi-tarixi əsərlərlə dünya oxucusuna çatdırılması.**

**Dəyirmi masanın iştirakçıları:**

Tarix üzrə fəlsəfə doktoru Vazeh Əskərov, Azərbaycan Dillər Universitetinin Regionşünaslıq və Beynəlxalq Münasibətlər fakültəsinin dekanı Anar Nağıyev, AMEA Qafqazşünaslıq İnstitutunun əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Nigar Gözəlova, AMEA Qafqazşünaslıq İnstitutunun əməkdaşı Ramilə Dadaşova, siyasi elmlər üzrə fəlsəfə doktoru Zaur Əliyev, tarix üzrə fəlsəfə doktoru Ziyad Əmrahov, AMEA Fəlsəfə İnstitutunun əməkdaşı Razim Əliyev, AMEA Folklor institutunun əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Ləman Süleymanova.

**Dəyirmi masanın moderatoru Jurnalist Ekspert Mərkəzinin sədri Ceyhun Musaoğlu**

**Moderator:** *Qarabağ həqiqətlərinin dünyaya çatdırılması istiqamətində fəaliyyətimiz davam edir. Mövzu ilə bağlı müxtəlif yazılar dərc olunub, araşdırmalar aparılıb, elmi konfranslarda, beynəlxalq tədbirlərdə geniş mühazirələr söylənilib. Amma hələlik arzuladığımız nəticəni əldə edə bilməmişik. Torpaqlarımız hələ də Ermənistanın işğalı altındadır. Deməli, fəaliyyətimizi genişləndirməli, səmərəli yollar axtarmalı və daha effektiv vasitələrdən istifadə etməliyik. Buna zərurət var və cənab Prezident də elə bu zərurətdən çıxış edərək, Azərbaycan həqiqətlərinin dünyaya yayılması işinin sürətləndirilməsini vacib hədəflərdən biri kimi dəyərləndirdi. İndi söz siz - alimlərindir. Necə işləməli, Qarabağ və tarixi Azərbaycan torpaqları ilə bağlı həqiqətləri dünyaya yaymağın, daha doğrusu, birmənalı olaraq, sübut etməyin daha hansı yollarından istifadə etməliyik.*

**Ləman Suleymanova:** Biz indiki dönəmdə ermənilərin öz dilindən çıxan həqiqətlərdən, yazılı mənbələrdən istifadə edə bilərik. Ermənilər özləri Azərbaycan torpaqlarına gəlmə olduqlarını sübut edən çoxsaylı faktların müəllifləridir. Təklif edirəm ki, ermənilərin bu yerlərə gəlmə olduqlarını sübut edən və onların öz dilindən çıxmış faktları bir yerə cəm edək. Məsələn, "SMOMP" dərgisinin 25-ci buraxılışının II şöbəsində Şuşa qəzasının Daşaltı kəndindən toplanmış materiallarda göstərilir ki, qaçqın ermənilər XIX əsrin əvvəllərində bu kənddə yerləşiblər. Və yaxud Çaykənddən toplanmış mətnlərdə əvvəlcə kəndin adının izahı, sonra kəndin 90 yaşlı qocası Petros Ter Akopovun Çaykəndə necə gəldikləri haqqında nəql etdikləri verilir. O, Sisianova Gəncəni ələ keçirməkdə kömək etdikləri üçün xeyli müsəlman ərazisinin onlara bağışlandığını deyir. Qeyd edim ki, mətnləri toplayanlar da ermənilərdir. **(Bu barədə daha geniş məlumat üçün bax: Ləman Süleymanova. Qarabağ folkloru. "Motif" dergisi, Ankara, 2011, səh.188-196)"**

**Ləman Süleymanovanın başqa bir təklifi** ruslar tərəfindən Qarabağda Azərbaycan türklərinin sayının kəskin şəkildə azaldılaraq, yerlərinin erməni əhalisi ilə doldurulmasına dair faktların aşkarlanması barədədir: **"Bu barədə arxivlərimizdə məlumatlar var. Eyni zamanda, qarabağlılar arasında bu faktla bağlı xatirələr də geniş şəkildə dolaşmaqdadır. (Bu barədə daha geniş məlumat üçün bax: Ləman Vaqifqızı (Süleymanova). Xocavənd rayonunun işğalı və Qaradağlı soyqırımı yaddaşlarda (Xocavənd sakinlərindən qeydə alınmış materiallar əsasında) - Soyqırımlar xalq yaddaşında. Beynəlxalq elmi konfransın materialları. Bakı şəhəri, 2 mart 2015-ci il. səh. 134-152.)**

*Müzakirə iştirakçıları Azərbaycanda erməni vəhşiliklərinə dair çoxsaylı kitablar dərc olunduğunu qeyd etsələr də, həmin kitablarda hadisə şahidlərinin xatirələrinə az yer verildiyini bildirdilər. Təklif olundu ki, torpaqlarımızın işğalı faktının və ermənilərin törətdiyi vandalizm aktları barədə məlumatların cəmləşdiyi kitablarda hadisələrə şahidlik etmiş insanların dediklərinə daha çox yer ayrılsın.*

**Nigar Gözəlova:** Dağlıq Qarabağ - müharibənin səbəbləri, torpaqların işğalına həsr olunmuş akademik monoqrafiyalar, kitablar müxtəlif dillərdə nəşr etdirilməli, xüsusilə bu konfliktin sosioloji, hüquqi, psixoloji və s. aspektləri tədqiq edilməlidir. Şahidlərin bu xatirələri 1988-1994-cü illərdəki qanlı hadisələr barədə məlumatların dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynaya bilər. Mən özüm şahidi olmuşam ki, ermənilər uydurduqları yalanları kitab şəklinə salıb beynəlxalq tədbirlərdə paylayırlar. Onlar əsasən insanların dilindən səslənən fikirlərə diqqət ayırırlar. Hansı ki, həmin o "şahid" qismində təqdim olunan adamlar hadisələri təhrif edir, azərbaycanlılara qarşı əsassız ittihamlar dilə gətirir və əvvəldən sona qədər yalan danışırlar. Lakin bizim əlimizdə bu qədər faktlar və erməni vəhşiliklərini gözlərilə görmüş insanlarımız olduğu halda, biz onların danışdıqlarını kitab şəklinə salmağa meyillənmirik. Yaxşı olar ki, hadisələrə şahidlik etmiş insanların dedikləri xarici dillərə tərcümə edilərək, kitab şəklinə salınsın və ardıcıllıqla xarici oxuculara çatdırılsın. Sabah artıq gec ola bilər. Çünki həmin hadisələrin canlı şahidləri əsasən yaşlı nəslin nümayəndələridir və zaman ötdükcə biz onları itiririk.

**Moderator:** *Əslində biz deyə bilmərik ki, Qarabağ həqiqətlərinin yer aldığı kitablarımız yoxdur və bu vaxta qədər bu istiqamətdə heç bir iş görülməyib. alimlərimiz, jurnalistlərimiz və tədqiqatçılarımız ortaya ermənilərin işğalçılıq siyasətini ifşa edən xeyli tutarlı materiallar qoya biliblər. Təkcə Heydər Əliyev Fondunun xəttilə Azərbaycan həqiqətlərinin toplandığı çoxsaylı kitablar var ki, onlar müxtəlif dillərə tərcümə olunaraq, geniş oxucu auditoriyasına yayılıb. Amma gəlin razılaşaq ki, belə kitabların olması və ya sayının artması üçün mütəxəssislərimiz sanballı materiallar, arqumentlərlə, tutarlı faktlarla zəngin olan araşdırmalar təqdim etməlidirlər. Dövlətin Qarabağ mövzusuna verdiyi önəm göz önündədir. Kitabların ərsəyə gəlməsinə dəstək verən siyasi və ictimai dairələrə daha kreativ və daha diqqətçəkən üslubda yazılmış materiallar təqdim etmək mütəxəssislərin üzərinə düşən ən vacib öhdəlikdir.*

**Anar Nağıyev:** Bu gün biz Qarabağ həqiqətləri, işğal tariximiz və erməni vəhşilikləri barədə məlumatları daha çox dünya ictimaiyyətinə çatdırılmasına maraqlıyıq. Aydındır ki, Azərbaycan vətəndaşına Qarabağla bağlı silsilə materiallar təqdim etməyə ehtiyac yoxdur. Bu gün azərbaycanlı tələbəyə, azərbaycanlı gəncə "Qarabağ kimindir" sualını vermək məntiqsizlikdir. Amma burada bir məsələ var ki, biz bunun üzərindən keçib gedə bilmərik. Söhbət azərbaycanlı tələbəyə Qarabağla bağlı hansı səviyyəli məlumatların və biliklərin verilməsindən gedir. Biz azərbaycanlı tələbəyə dərin mənbəyə söykənən və tutarlı faktlarla əhatələnən məlumatların cəm olduğu ədəbiyyat verməliyik. Qoy sabah hansısa bir səviyyə çatıb, ispan, alman həmkarı ilə Qarabağ mövzusunda danışarkən onun əlində kifayət qədər güclü rıçaqlar, dəqiq faktlar və dərin məlumat bazası olsun.

**A.Nağıyev** Qarabağ mövzusundan bəhs edən kitablarla bağlı danışarkən, müəlliflər məsələsinə xüsusi diqqət yönəltdi. Sözügedən mövzuda yazılan kitabların əslində bu gün üçün deyil, 20-30 il sonrakı dövr üçün nəzərdə tutulmalı olduğunu deyən A.Nağıyev bizim həqiqətlərimiz barədə əcnəbi müəlliflərin yazdıqlarının daha çox effekt verəcəyini dedi: **"Gəlin razılaşaq ki, Qarabağ həqiqətləri və ermənilərin bizə qarşı işğalçılıq siyasəti barədə tanınmış əcnəbi müəllifin kitabı bizim yazdığımız və yazacağımız kitabdan daha çox səmərə verə bilər. 20-30 ildən sonra bu mövzuda beynəlxalq səviyyələrdə araşdırmalar aparılarkən, yaxud prezidentlər üçün çıxış hazırlanarkən, şübhəsiz, əcnəbi müəllifin yazdıqlarına daha çox istinad olunacaq. Bu baxımdan hesab edirəm ki, istər dövlət və fondlar, istərsə də biznes strukturları səviyyəsində olsun, Qarabağla bağlı kitabların daha çox əcnəbi müəlliflər tərəfindən yazılmasına xüsusi maraq göstərilməlidir".**

**Zaur Əliyev:** Erməni ziyalıları, iş adamları və diaspor təmsilçiləri Britaniyada belə bir təcrübə yaradıblar. Onlar Britaniya universitetlərinin tələbələri arasında Ermənistan və Dağlıq Qarabağla bağlı ən yaxşı film, ən yaxşı yazı və ən yaxşı ssenari müsabiqələri keçirir, bu işlərə böyük məbləğdə qrant ayırırlar. Azərbaycan da bu işə xarici mütəxəssisləri cəlb edə bilər və məsələn, xarici alimlərə və universitetlərə qrant ayıra bilər ki, Qarabağ mövzusunda yazılar yazılsın, araşdırmalar aparılsın. Bundan başqa, biz xarici ölkələrin arxivlərindəki Qarabağ münaqişəsinin gerçək səbəblərini, Azərbaycanın işğala məruz qaldığını, eləcə də ermənilərin uydurduğu qondarma soyqırımın olmadığını göstərən sənədlərə çıxış imkanları əldə edə bilərik. Məsələn, İngiltərədə bu tip sənədlər, məhkəmə qərarları və s. satışa çıxarılır. Bax, bütün bu işlərə də dövlət səviyyəsində vəsait ayrılmalıdır. Sizə bir fakt deyim. Heydər Əliyev Fondu vasitəsilə Vatikanla münasibətlər və əlaqələr yaranandan sonra biz kifayət qədər ciddi tarixi mənbələrə çıxış imkanı əldə etdik. Vatikan bizə qapısını açdı. Alimlərimiz gedib Vatikandan bizim tariximiz barədə tutarlı sənədlər gətirdilər...








**Ardı var**

**Hazırladı: Nicat Dağlar**
**Jurnalsit Ekspert Mərkəzinin sədr müavini**

*Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə hazırlanıb*